# Zaqatalada beynəlxalq fındıq, qoz, şabalıd festivalı

**Keçmiş sovetlər birliyi vaxtında ilk fındıq emalı zavodu Zaqatalada tikilib istifadəyə verilib. Burada istehsal olunan fındıq və konserv məhsulları SSRİ-nin bütün respublikalarına, eyni zamanda bir neçə Avropa ölkələrinə ixrac olunub. İlk fındıqçılıq sovxozu da Zaqatalada 1932-ci ildə yaradılıb və buradakı zona təcrübə stansiyasında tədqiqat işləri aparılıb. Sort sınaq məqsədilə 100-ə yaxın fındıq növünün təcrübəsinin aparılması isə iyirminci əsrin 70-80-cı illərinə təsadüf edir. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda ilk olaraq aqrar sahədə islahatlar bu rayonda aparılıb. Ötən önilliklərdə Zaqatalada kənd təsərrüfatının digər sahələri ilə yanaşı, fındıqçılığın inkişafında da böyük sıçrayış olub.**







Fındıqçılıqla məşğul olan sahibkarlar rayonda emal müəssisələrini artırmaqla, xarici bazarlara çıxışı daha da genişləndirmişlər. Qardaş Türkiyədən gətirilib quraşdırılan ən müasir zavodlar bu inkişafa, yüksəlişə daha güclü təkan olmuşdur. Rayonda fındıqçılığın inkişafını və bu inkişafın respublika və beynəlxalq miqyasda önəmli yerdə durmasını bu gün ölkədə olan fındıq bağlarının və istehsal olunan məhsulun 30 faizinin, həmçinin fındığın xaricə ixracından respublikaya gətirilən gəlirin 80 faizdən çoxunun məhz Zaqatala rayonunun adına yazılması faktları da aydın göstərir.

2019-cu ilin 28 sentyabrı da zaqatalalıların ürəklərində növbəti üçüncü beynəlxalq fındıq, qoz, şabalıd festivalının keçirildiyi tarix kimi əbədi həkk olunur. Hələ bir neçə gün öncədən əsl toy-bayram ünvanına çevrilən Zaqatala bu gün daha füsunkar, daha cazibədar və daha vüqarlı görünür. Zaqatala şəhərinin, həmçinin, onun bütün kənd və qəsəbələrinin sakinləri, artıq dünya şöhrəti qazanan məhsullarının el şənliyini qeyd edir. Zaqatala fındığının şöhrəti ilə dünyanı dolaşmaqla, bu məhsulun xeyrini və ləzzətini, gəlirini yaxşı bilən dünya sakinlərini də çəkib öz qoynuna, güllər diyarına gətirib. Zaqatala Rayon İcra Hakimiyyətinin təşkilatçılığı, Mədəniyyət və Kənd Təsərrüfatı Nazirliklərinin dəstəyi ilə reallaşan festivalda ölkəmizdə fəaliyyət göstərən 20-dən artıq xarici ölkə səfirliyinin rəhbər və təmsilçiləri, nazirlik və dövlət qurumlarının nümayəndələri, Milli Məclisin deputatları, fındıq istehsalçı və ixracatçıları, rayon sakinləri iştirak edirdilər.

Zaqatala sözün həqiqi mənasında əsl bayram əhval-ruhiyyəsindəydi. Rayonun qədim tarixi meydanı "Dədə Qorqud" meydanı, ulu öndər Heydər Əliyevin adını daşıyan Heydər parkının əzəməti daha böyük, daha coşqun görünürdü. "Dədə Qorqud" meydanında açılışı olacaq bayram şənliyinə start veriləndə kimi jurnalist həmkarım **"Zaqatala" qəzetinin redaktoru İbrahim İbrahimov, əməkdaşı Elmira xanımla** həmsöhbət oldum. Onların rayonun tarixi, sosial-iqtisadi, mədəni həyatı barədə verdikləri zəngin məlumatları həm yaddaşıma, həm də cib dəftərçəmə köçürdüm. 1923-cü ildə "Zaqatala kəndlisi" kimi fəaliyyətə başlayan rayon qəzetinin ötən illərdə başqa-başqa adlarda nəşr olunan bütün nömrələrində Zaqatalanın iqtisadiyyatında mühüm rol oynayan fındığın, qozun, şabalıdın çoxaldılması istiqamətində görülən işlərdən danışdılar, əvvəlki bayramlarda olduğu kimi, 2019-cu ilin festivalına da hazırlanan maraqlı xüsusi buraxılışın bu gün bayram iştirakçılarına çatdırılacağını söylədilər. İbrahim müəllimlə birlikdə ürəkaçan mənzərələrin bir çoxuna baş çəkdik. Heydər parkındakı qələbəlik diqqətimizi çəkdi. Bayrama gələn xarici və ölkədaxili qonaqlar burada rayonun rəsmiləri tərəfindən qarşılanır, təşkil olunan çay süfrələrinə dəvət edilirdilər. Qonaqların söhbətlərində, bir-birləri ilə tanışlıq danışıqlarında Zaqatalanın gözəlliyi, rayondakı işgüzarlıq, səmimiyyət, mehribanlıq, ən əsası da fındıqçılığa olan həvəs əsas yer tuturdu. Saat 10 tamamda hamı əlində gül-çiçək dəstələri ilə ulu öndərin abidəsi önünə gəldi, onun xatirəsini böyük ehtiramla yad etdi. Sonra Heydər Əliyev Mərkəzi ilə tanışlıq oldu. Qonaqların Zaqatala bölgə təcrübə stansiyasının Pərzivan ərazisindəki fındıq bağına, "Karaca fındıq" MMC-nin fındıq emalı zavoduna baxışları da maraqlı keçdi. Gündüz saat on iki tamamda isə qədim tarixli "Dədə Qorqud" meydanında festivalın açılışına start verildi. İlk söz **Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadəyə** verildi:

—Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin ölkəmizdə həyata keçirdiyi dərin iqtisadi islahatlar, qeyri-neft sektorunun inkişafının prioritet vəzifə elan olunması yenidən aqrar sahənin dirçəldilməsini təmin etdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun rayonumuzda fındıqçılıq, baramaçılıq, tütünçülük və gülçülük sahələrində geniş miqyaslı layihələrin icrasına başlanılıb. Məlumat üçün bildirim ki, qarşımıza fındıq bağlarının sahəsinin ikiqat artıqmaq vəzifəsi qoyulmuşdu. 2015-ci ildə, yəni bu vəzifə qarşıya qoyulanda rayonumuzda mövcud fındıq bağlarının sahəsi 9575 hektar təşkil edirdi. Cari ilin yazında salınan bağlar da daxil olmaqla ümumi fındıq bağlarının sahəsi 19750 hektara çatdırılmışdır. Payız aylarında salınacaq yeni bağlar hesabına qarşıya qoyulan vəzifə tam yerinə yetiriləcəkdir. Rayonumuzda 2015-ci ildə 9283 ton fındıq istehsal olunmuşdusa, 2018-ci ildə bu göstərici 15069 tona çatmışdır.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rayonumuza diqqət və qayğısı sayəsində bu gün Zaqatala rayonu sözün əsl mənasında ilahi bir gözəlliyə qovuşmuşdur. Son illərdə rayonumuzda keçirilən "Fındıq, qoz və şabalıd" festivalları sayəsində Zaqatala rayonunun iqtisadi, mədəni və turizm potensialı daha geniş nümayiş etdirilir, ixracyönümlü məhsullarımız sayılan fındığın, qızılgüldən hazırlanan məhsulların, baramanın, tütünün xarici bazarlara çıxarılmasında iqtisadi əlaqələrə imkanlar yaranır.

Bayram iştirakçısı olan nazirlik və ayrı-ayrı dövlət qurumlarının nümayəndələri, sahibkarlar da öz çıxışlarında bu festivalın böyük əhəmiyyətindən söhbət açdılar, onun istehsalının və ixracının daha geniş miqyasda artırılmasına yüksək stimul verəcəklərini bildirdilər. Fındıqla bəzədilən tortun kəsilmə mərasimi və bunun çay süfrəsi ətrafında ləzzətlə qeyd olunması da hamının bayram ovqatını birə on qat artırdı.

Ərazicə çox böyük olmasa da dünya boyda gözəlliyi, mehriban qonaqpərvərliyi, dostluğu, qardaşlığı, vüqarlılığı, əzəməti özündə cəmləyən bu ünvanın - "Dədə Qorqud" meydanının fındıqla, digər gözəlliklərlə bəzədilən hər guşəsi adama zövq verirdi. İbrahim müəllim kənd həyatını əks etdirən guşəyə işarə verib ora yön aldı. Bura gələndə sanki bir anlığa fındıqçılıqla məşğul olan hansısa bir kəndin qonağına çevrilirsən. Fındıq və qoz qabığı ilə sobanın yandırılması, fındığın, şabalıdın, qoz ləpəsinin qovrulması, təndirdə fındıq çubuğunun yandırılması, fındıqdan, şabalıddan müxtəlif milli xörəklərin bişirilməsinə baxmaqdan doymur, sözügedən məhsulun nə qədər böyük əhəmiyyətli olduğuna heyran qalmaya bilmirdin. Ayrı-ayrı kəndlərin nümayəndələri təşkil etdikləri fındıq, qoz və şabalıdın müxtəlif növlərinin nümayişi, rəsm və əl işləri, məktəblərin, uşaq bağçalarının fındıqdan hazırladıqları müxtəlif sənət nümunələri də bayram iştirakçılarında maraq doğururdu.

**İsmayıl Orucov, Fındıq istehsalçıları və ixracaatçıları Assosiasiyasının sədri:**

—Fındıq sahəsinin inkişafında Prezident İlham Əliyevin 2017-ci ildə imzaladığı dövlət tərəfindən fındıq pöhrələrinin alınaraq fermerlərə pulsuz verilməsi barədə Sərəncamı fəaliyyətimizdə mühüm rol oynadı. Bununla yanaşı, fındıq istehsalçılarına 10 milyon manat məbləğində güzəştli kreditlər ayrılması da bu məhsulun ixracında sahibkarlara əlavə stimul verdi.

Azərbaycanda son bir neçə ildə aparılan güclü əkin işləri nəticəsində fındıq sahələri 74 min 944 hektara çatdırılmışdır. 2018-ci ildə Azərbaycanda 52 min tondan çox fındıq məhsulu istehsal olunmuşdur. Ötən il Azərbaycandan 25-ə yaxın xarici ölkəyə fındıq ixrac olunmuşdur. Hazırda respublikamızda fındıqçılıq sahəsində 25 mindən çox ailə-fermer təsərrüfatı çalışır. 2017-ci ilin oktyabrında yaradılan Assosiasiyanın əsas məqsədi ölkəmizdə fındıqçılığın inkişafına, eləcə də ixrac potensialının genişləndirilməsinə kömək göstərmək olmuşdur.

Dünya bazarında fındıqçılıq sahəsində rəqabət kifayət qədər güclüdür. Hələlik Azərbaycan fındıq ixracında dünyadakı 3-cü yeri qoruyub saxlaya bilmişdir. Dünyanın qabaqcıl şokolad istehsalçılarından biri olan İsveçrənin şirkətləri avqustun sonlarına təsadüf edən səfərləri zamanı fındıq ixracı ilə məşğul olan şirkətlərlə əməkdaşlıq məsələlərini müzakirə etmiş, Zaqatalanın iki şirkətində olmuşlar. Qeyd etmək lazımdır ki, bu sahədə dövlət dəstəyi ilə keçirilən təşviq tədbirlərinin rolu böyükdür. Belə ki, qurum İqtisadiyyat Nazirliyi və AZPROMO ilə əməkdaşlıq edərək yeni dəstək mexanizmlərindən xüsusilə ixrac təşviqi və "Made in Azerbaijan" brendinin tanıdılması ilə bağlı tədbirlərdən geniş yararlanır. Assosiasiya xarici ölkələrdə keçirilən ixrac missiyalarında, o cümlədən sərgilərdə iştirak etmiş, yeni bazarlarda müştərilər tapılmasına dəstək vermişdir.

**Cəərçi Hacıyev, sahibkar:**

—20 ildən artıq olan təcrübəmdən çıxış edərək inamla deyə bilirəm ki, bir alıcı kimi gözlədiyim bu xətt bəlkə də uğurlarımın əsasında durur. Biz, yəni mənim kimi fındıq emalı ilə məşğul olan yerli iş adamları hər zaman insanlarımızın əməyini qiymətləndirməyə çalışmışıq. Məhz ona görə də bu gün onlar da bizim işimizə hər cür dəstək verirlər. Təbii ki, bizə belə gözəl iş şəraitini yaradan dövlətimizdir və müxtəlif bürokratik əngəlləri aşmağımızda da Prezidentimiz tərəfindən iş adamlarına göstərilən qayğının çox böyük əhəmiyyəti vardır. Gözəl payız günündə, fındıq yığımının sonunda, gözəl şəhərimizin ən gözəl meydanında keçirilən 3-cü "Fındıq, qoz və şabalıd festival"ımız mübarək olsun.

Al-əlvan geyimli "Dədə Qorqud" meydanında təşkil olunan sərgilərin, əl işlərinin yaxşılarının yaxşısının qiymətləndirilməsi də unudulmadı. Müsabiqələr təşkil olundu, qaliblər müəyyənləşdirilib mükafatlandırıldı.

Zaqatalanın növbəti beynəlxalq fındıq, qoz, şabalıd festivalı axşam Heydər parkında bayram konserti ilə başa çatdı.

**Rasim AMANOV,**
**"Respublika".**







